# AUDİTOR RƏYİ
# AUDITOR OPINION
## SERIYA AK – 11

**RR - VAM BEYNƏLXALQ AUDİT KONSALTİNQ MMC**
**INTERNATIONAL AUDIT CONSULTING LLC**

**"AzSiğorta" ASC**

**VÖEN: 1301158021**

1. Biz 02 fevral 2015-ci il tarixli AK seriyalı 11/15 saylı müqaviləyə əsasən "AzSiğorta" ASC -nin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2014-cü il tarixinə əlavə edilən Maliyyə vəziyyəti haqqında hesabatının və bu tarixdə bitən il üzrə müvafiq maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatının , pul vəsaitlərinin hərəkəti və iştirakçı kapitalında dəyişikliklər hesabatlarının auditini apardıq. Həmin maliyyə hesabatlarına görə Cəmiyyətin rəhbərliyi məsuliyyət daşıyır. Bizim məsuliyyətimiz auditimiz əsasında həmin maliyyə hesabatları haqqında rəy bildirməkdən ibarətdir.
2. Biz auditimizi Beynəlxalq Audit Standartları əsasında apardıq. Həmin Standartların tələbinə görə biz işimizi elə şəkildə planlaşdırmalı və yerinə yetirməliyik ki, maliyyə hesabatlarında ciddi nöqsanların olmamasından kifayət qədər əmin ola bilək. Auditə test üsulu ilə maliyyə hesabatlarındakı məbləğləri və açıqlamaları təsdiqləyən dəlillərin yoxlanılması daxildir. Bundan əlavə, auditə mövcud mühasibat prinsiplərinin və Rəhbərliyin mühüm təxminlərinin, eləcə də maliyyə hesabatının ümumi təqdimatının dəyərləndirilməsi daxildir. Biz hesab edirik ki, apardığımız audit rəyimizi bildirmək üçün kifayət qədər əsas verir.

3. Bizim rəyimizcə, əlavə edilən maliyyə hesabatları bütün mühüm aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2014-cü il tarixinə maliyyə vəziyyəti və eləcədə, Maliyyə Hesabatlarının Beynəlxalq (MHBS) Standartlarına müvafiq olaraq başa çatmış il üzrə maliyyə nəticələri və nağd pul axını barədə düzgün və ədalətli təsəvvür yaradır.

AK 11

19 mart 2015

Bakı, Azərbaycan Respublikası

**"RR - VAM Beynəlxalq Audit Konsaltinq"**

**MMC-nin Direktoru** **Qurbanov A. Ş.**

Azərbaycan Respublikası Auditorlar Palatası • "RR-VAM Beynəlxalq Audit Konsaltinq" MMC • RR VAM • "RR-VAM International Audit Consultants" • Azerbaijan Republic Chamber Auditors

**RR - VAM**